*© "Metafizika" Journal* *p-ISSN 2616-6879*
*Vol 6, issue 1, serial 21, 2023. pp.139-160* *e-ISSN 2617-751X*

**UOT:** 394\395.
**KBT:** 63.3(2)64-
**MJ №** 160

# Ümummilli lider Heydər Əliyev və dini-mənəvi dəyərlər

**İbrahim Quliyev***

**Abstrakt.** Bu gün artıq bütün dünyada dinə qayıdış və dini dəyərlərə böyük önəm verilməsi hadisəsi yaşanır. Yaşadığımız dövrdə dinlərin rolu yenidən böyük nüfuz qazanmış, bu sahədə bir sıra ciddi elmi araşdırmalar aparılmış, elmi məlumat və təlim-tədris işləri artmış, ziyalıların mövzuya marağı çoxalmışdır. Çünki din həm də əxlaqi bir təsisat olaraq insanlara istiqamət verən bir sistemdir. Lakin unutmaq olmaz ki, güclü ideoloji təsir gücünə malik olan dini insanlar arasında elə təbliğ etmək lazımdır ki, ondan məkrli niyyətlər üçün istifadə edilməsin. Müstəqilliyimiz dövründə xarici ölkələrdən, xüsusilə də Qərbdən və Şərqdən gələn "missionerlər" daha fəal idilər. Onların ölkəmizin daxilində müsəlman və qeyri-müsəlman, sünni-şiə arasında nifaq salmaq cəhdləri daha güclü və məkrli idi. Qərb və Şərqdən ölkəmizə gəlib burada hərc-mərclik yaratmaq istəyənlərə qarşı qəti bir addımı məhz Ümummilli liderimiz Heydər Əliyev atdı. O, 1997-ci ilin 8 yanvar tarixli xüsusi sərəncamı ilə Azərbaycanda xarici dini missionerlərin pozuculuq fəaliyyətini qadağan etdi. Bununla da, dahi lider müasir dünyamızda dini inancların formalaşmasının müəyyən mənada əsasını qoyaraq onun istiqamət hədəfini göstərmiş oldu.

Dinin mahiyyətini bütün incəliklərinə qədər dərk edən Ümummilli liderimiz Heydər Əliyev onun mənəvi emosional təsir gücündən səmərəli istifadə edilməsini azərbaycançılıq məfkurəsinin fundamental prinsiplərindən biri kimi qiymətləndirdi. Ümummilli lidermiz milli-əxlaqi mentalitetdə islam əxlaqı normalarının əhəmiyyətini yüksək qiymətləndirmiş, onların inkişaf etdirilməsi və yayılması istiqamətində səmərəli fəaliyyət göstərmişdir. Buna görə də deyə bilərik ki, Ulu Öndərimizin milli-mənəvi dəyərlərin yaşadılması istiqamətindəki siyasi fəaliyyəti hər zaman aktualdır və bu siyasət Azərbaycan dövlətçiliyinin ən ümdə vəzifələrindən biridir.

---

* Fəlsəfə üzrə fəlsəfə doktoru,
Azərbaycan İlahiyyat İnstitutunun İslamşünaslıq kafedrasının müəllimi; Bakı, Azərbaycan
E-mail: quliyev.ibrahim.78@mail.ru
https://orcid.org/0000-0001-9789-3148

**Məqaləyə istinad:** Quliyev, İ. [2023] Ümummilli lider Heydər Əliyev və dini-mənəvi dəyərlər. *"Metafizika" jurnalı, 6(1),* səh.139-160.

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 14.01.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 13.02.2023*
*Çapa qəbul edilmişdir: 14.03.2023*

Bu gün Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizin qarantına çevrilmişdir. Cənab Prezident xalqımızın milli-mənəvi dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir.

Prezident İlham Əliyevin milli ideologiyaya dair baxışları onun siyasi portretinin əsas cizgilərini təcəssüm etdirir. Ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Fondun milli-mənəvi dəyərlərimizin qorunması və təbliğ edilməsi istiqamətindəki geniş fəaliyyətini də xalqımız böyük minnətdarlıqla qarşılayır.

**Açar sözlər:** İslam dini, milli-mənəvi dəyərlər, Ümummilli lider, Heydər Əliyev, İlham Əliyev

## 1.Giriş

Azərbaycan tarixən İslam ilahiyyatının beşiyi olmuşdur. Burada ilahiyyatın bütün sahələrinə aid görkəmli və əvəzedilməz alimlər yetişmişlər. Azərbaycanda ilk İslam mədrəsəsi VII əsrin sonlarında əzəli ərazimiz olan Ərdəbil şəhərində tikilmişdir. Həmin mədrəsə Ərdəbil İslam Mədrəsəsi adlanırdı. Burada təkcə ilahiyyat elmləri deyil, eyni zamanda təbiətşünaslıq elmləri də tədris-təlim olunurdu. Bundan başqa, Elxanilərin paytaxtı olan Təbriz şəhərində Qazan xanın (1295-1304) vəziri Rəşidəddin Fəzlullah (1247-1318) ilk dəfə olaraq Rəbi-Rəşidi adlı akademiya tipli mədrəsə təsis etdirmişdir. Həmin mədrəsədə dünyanın müxtəlif yerlərindən (Çin, Hindistan, Misir, Suriya və s.) yeddi minə yaxın tələbə təhsil alırdı. Tələbə və müəllim heyəti yolda vaxt itirməsin deyə mədrəsənin həyətində tələbə-müəllim yataqxanası tikilmişdir. Tələbələr burada pulsuz təhsil alırdılar. Onların bütün xərci Rəşidəddinin şəxsi əmlakından əldə olunan zəkatdan ödənilirdi. Mənbələrin verdiyi məlumatdan aydın olur ki, Rəbi-Rəşidi mədrəsəsinin həyətində "Dige-mekinan" ("yoxsullar qazanı") deyə məşhur olan iki qazan gündə üç dəfə qaynadılar, onların birində düyü, digərində isə ət bişirilərək tələbə-müəllim heyəti ilə yanaşı, ətrafda yaşayan yoxsul və yetimlərə də süfrə açılardı.

Bütün bunların fonunda bir daha bildirmək istəyirik ki, xalqımız İslam dinini qəbul etdikdən sonra bu dinin inkişafında müstəsna rol oynamış, islam ilahiyyatşünaslığının inkişafında əvəzolunmaz xidmət göstərmişdir. Bunu da xüsusi olaraq vurğulayaq ki, Azərbaycan ilahiyyatşünaslığında ilk təlim-tədris olunan elmlərdən biri hədisşünaslıqdır. Hələlik aparılan tədqiqatlar zamanı sübut olunmuşdur ki, VII-VIII əsrlərdə yaşamış Azərbaycan hədisşünasları xilafətin müxtəlif bölgələrinə səyahətlər edər, zamanın tanınmış alimlərindən hədis dinləyər, ilahiyyatın müxtəlif sahələrinə yiyələnərdilər. Bunların arasında 699-cu ildə İraqda vəfat etmiş Əbu Əyyub Yəhya bin Malik əl-Marağinin xüsusi yeri vardır. O, səhabələr təbəqəsinin bir çox öndər şəxsiyyətlərindən, o cümlədən Əbu Hüreyrə əd-Dusi (öl. 678),

Abdullah bin Ömər (610-693), Abdullah bin Abbas (619-687) və başqalarından hədislər nəql etmişdir [1, s.68].

Deməli, biz Azərbaycan ilahiyyatşünaslığını tədqiq etdikcə həm qürurlanır və həm də belə nəticəyə gəlirik ki, əgər Azərbaycan ilahiyyatşünaslığı olmasaydı, bəlkə də islam ilahiyyatı bu qədər zəngin tarixə malik ola bilməzdi. Buradan bir daha aydın olur ki, ilahiyyat elmləri xalqımızın milli məfkurəsində həmişə diqqət mərkəzində olmuş, xalqımızın adət-ənənəsində, bir sözlə, mədəniyyətinin bütün sahələrində öz əksini qoruyub saxlamışdır.

Bütün bu qeyd etdiklərimizin fonunda bir daha bildirmək istəyirik ki, müasir Azərbaycan ilahiyyatşünaslığının inkişafı və təbliğində, milli-mənəvi və xüsusi ilə də dini dəyərlərimizin qorunmasında Heydər Əliyev zirvəsi xüsusi bir yerə sahibdir. Əgər Ümummilli liderimiz vaxtında din siyasətini doğru-düzgün şəkildə qurmasaydı və yaxud da dini dəyərlərə xüsusi diqqət ayırmasaydı, nəinki müasir Azərbaycan ilahiyyatşünaslığı inkişaf edər, əksinə, cəmiyyətimiz dini-məzhəbi zəmində baş verən təlatümlər qarşısında tab gətirə bilməz və bəlkə də özü bu təlatümlərin qurbanına çevrilərdi. Ümummilli liderimizin dini tolerantlıqla yanaşı, dini biliklərin öyrədilməsi, dini abidələrin dövlət tərəfindən qorunması və lazım gələrsə, dövlət tərəfindən dəstək görməsini təkcə ölkədə yaşayan müsəlman vətəndaşları deyil, eyni zamanda Azərbaycanda yaşayan bütün konfessiyaların nümayəndələri hiss edirlər. Müsəlman vətəndaşlarla bərabər, qeyri-müsəlmanlar da inanclarından irəli gələn heç bir narahatlıq hiss etmirlər. Onlar Ümummilli liderimiz tərəfindən əsası qoyulmuş siyasət nəticəsində ölkəmizin bütün guşələrində müsəlmanlarla birlikdə dinc yanaşı yaşayırlar və heç vaxt dini zəmində ayrı-seçkiliyə məruz qalmırlar. Hətta Ermənistan Azərbaycan torpaqlarını işğal edib dinc əhalini məhv etdi, vətəndaşlarımızı yaşadıqları yerlərdən, ata-baba torpaqlarından qovdu, lakin buna baxmayaraq, Azərbaycanda bir çox erməni ailəsi zərər görmədən yaşayır, onların Bakının mərkəzindəki kilsələri də dövlətimiz tərəfindən qorunub saxlanılır. Bununla bərabər, məzhəblər arasında tolerantlıq və mehriban davranış da yaddan çıxmamalıdır. Məlumdur ki, Azərbaycanda müxtəlif məzhəblər vardır, lakin heç bir vaxt bu məzhəblər arasında qarşıdurma olmayıb. Təəssüf ki, müsəlman dünyası dinlərarası mübarizədən çox əziyyət çəkir [3, s.14-15]. Lakin şükürlər olsun ki, bizim ölkəmizdə dinlərarası və məzhəblərarası qarşıdurma problemi yoxdur. Bütün bunların hamısı müasir Azərbaycanın banisi Ümummilli liderimiz Heydər Əliyevin fərasəti, uzaq görən siyasəti və dəyanəti sayəsində olmuşdur. Bu faktlar həm də xalqımızın mədəni və humanist tolerantlıq səviyyəsini bir daha təsdiqləmək üçün kifayətdir.

Məlumdur ki, hər bir xalqın tarix boyunca inkişaf etmiş, qorunub saxlanmış milli-mənəvi dəyərləri var və o xalqı da formalaşdıran məhz bu dəyərlərə sahib çıxmasıdır. Bəzən bir cəmiyyətdə müxtəlif xalqlara məxsus milli-mənəvi dəyərlər anlayışı çox zaman düzgün qurulmayan siyasətin nəticəsində dağılıb aradan gedir. Buna görə də gəlin unutmayaq ki, bir xalqı, bir cəmiyyəti var edən və daima ayaqda saxlayan milli-mənəvi sərvətlər gərək dövlət tərəfindən qoruna və düzgün şəkildə təbliğ edilə. Bunların qorunub saxlanması və hər növ təhlükədən amanda qalması üçün uyğun dövlət siyasəti olmalıdır. Bu gün Allaha şükürlər olsun ki, əsası Ümummilli liderimiz tərəfindən qoyulan düzgün siyasət cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Artıq bütün dünya xalqlarına sübut olunmuşdur ki, Azərbaycan xalqı yüksək mədəniyyətə malik mütərəqqi xalqdır. Azərbaycan dünya ölkələri arasında öz mədəniyyəti, sülhsevərliyi, tolerantlığı və multikultural dəyərlərə önəm verməsi baxımdan təqdirəlayiq bir ölkədir. Bunu ölkəmizə səfərə gələn xarici qonaqlar, siyasətçilər, elm və mədəniyyət xadimləri, turistlər də etiraf edirlər ki, Azərbaycan xalqı fərqli xüsusiyyətləri, yüksək intellektual qabiliyyətləri, texniki tərəqqiyə can atmaları və həyat tərzini yaxşılaşdırmaq üçün çalışqan, zəhmətsevərdirlər. Azərbaycana gələn qonaqlar həmişə xalqımızı sonsuz qonaqpərvərliyi, dözümlülüyü, başqa dinlərə, məzhəb və millətlərə qarşı xoş davranışı ilə yadda qaldığını qeyd edirlər. Bütün bunların hamısı həm də onu göstərir ki, xalqımız hər şeyə dözməkdə müdrikdir, sıxıntılar, əzablar və məhrumiyyətlər heç vaxt onu öz haqq yolundan döndərə bilməz, onun əxlaqına, mənəvi dünyasına mənfi təsir edə bilməz. Sülhsevərlik, başqalarına qarşı xoş münasibətdə olmaq xalqımızın xasiyyəti, təbiətinə xas əxlaqdır. Azərbaycan xalqının əsas əlaməti qarşıdurmadan qaçmaq, toqquşmalardan çəkinmək və bunların əvəzinə insanlar arasında etibarlı, dostluq münasibətləri yaratmaq, dünya xalqları arasında sıx əlaqələr yaratmaqdır.

## 2.Ümummilli lider Heydər Əliyevin din siyasəti

Əbəs deyildir ki, məhz Ümummilli liderimizin yenidən hakimiyyətə gəlişindən sonra Azərbaycanda məscidlərin sayı 19-dan 1236-ya çatdırılmış, şəhər və kəndlərdə 160-a yaxın pir üzərində məscidlər tikilmişdir. Məhz onun göstərişi əsasında Naxçıvanda "Həzrət Zəhra (ə) məscidi" tikilmiş və "Əshabi-Kəhf" ziyarətgahı yenidən təmir edilib abadlaşdırılmışdır.

Bayıl qəsəbəsindəki dağıdılmış "Bibiheybət piri" Ümummilli lidermiz Heydər Əliyevin imzaladığı fərman əsasında ikimərtəbəli və ikigünbəzli formada tikilmişdir. 1997-ci ilin payızında adı çəkilən piri ziyarət edən liderimiz məscid tikintisini öz himayəsinə götürmüş və bu məqsədlə həmin vaxt 3 milyard manat pul ayırmışdı.

Müstəqilliyimiz bərpa olunduqdan sonra ölkəmizdəki dini dözümlülük, bütövlükdə tolerantlıq mühiti və mədəniyyəti ümummilli lider Heydər Əliyevin müdrikcəsinə formalaşdırdığı dövlət-din siyasətinə uyğun olaraq daha da möhkəmlənib, bu sahə dövlət siyasətinin prioritet istiqamətinə çevrilib. Ölkə vətəndaşlarının vicdan azadlığı hüququ birbaşa Konstitusiyamızda, eyni zamanda “Dini etiqad azadlığı haqqında” Qanunda daha müfəssəl şəkildə təsbit olunub.

İslamın təkcə Azərbaycan xalqına deyil, eyni zamanda bütün Qafqazda yayılmasının Qafqaz xalqlarının da həyatındakı sosiomədəni əhəmiyyətini şərh edən ulu öndər demişdir:

> *“Azərbaycanda İslam dini VII əsrdən yayılıb və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir. Bizim çoxəsrlik islam dövrü tariximiz zəngindir. Bu gün iftixar hissi ilə deyirik ki, Azərbaycan İslam mədəniyyəti, İslam dini ilə bağlı olan dahi insanları- Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və bir çox digər böyük şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr vermiş və İslam mədəniyyətini zənginləşdirmişdir. Biz bunlarla fəxr edirik. Biz Azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz İslam dininə, İslam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik”.*

Bütün bu deyilənlərin fonunda bildirmək istəyirik ki, öz şəxsində, öz məfkurəsində İslam böyüklərinin mənəvi mədəniyyətini daşıyan Ümummilli liderimiz Heydər Əliyev İslam dininin xalqımızın tarixində, mənəviyyatında oynadığı rola diqqət yönəltmiş, İslamın həmişə dözümlülük nümayiş etdirdiyini bildirmiş və bunu öz siyasətinin tərkib hissəsinə çevirmişdir. Müasir Azərbaycan dövlətinin banisi olan Ümummilli liderimizin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsi uçurumda olan xalqımızı hər yönündən xilas etdi. O, xalqımızı təkcə siyasi, sosial və iqtisadi bəladan deyil, eyni zamanda milli-mənəvi, xüsusilə də dini dəyərlər baxımından böyük təhlükələrdən qorudu. Əbəs deyil ki, məhz onun səyi nəticəsində Azərbaycanda ilahiyyat elmlərinin inkişafı öz yeni mərhələsinə qədəm qoymuşdur. Azərbaycandakı dini ocaqların, məscidlərin, sinaqoq və kilsələrin yenidən təmir edilməsi, bəzi məntəqələrdə yenilərinin tikilməsi onun din siyasətinin, tolerantlıq siyasətinin tərkib hissəsi kimi xarakterizə edilməlidir. O, məscidlərə gedir, dini münasibətlərlə keçirilən mərasimlərdə iştirak edir, dindarlarla görüşür, dövlətin strateji xəttini özü şəxsən izah etməyə çalışırdı. Heydər Əliyev 5 sentyabr 1993-cü ildə Təzəpir məscidində Məhəmməd peyğəmbərin mövludu münasibətilə keçirilən mərasimdə çıxış edərək demişdir:

*"Biz bir dövlət kimi Azərbaycan Respublikasında, müstəqil Azərbaycanda hər bir insanın sərbəst olaraq öz dini adət-ənənələrinə xidməti və onlardan istifadə etməsinə bütün imkanları yaradacağıq".*

Müsəlmanların dini bayramı olan Ramazan bayramı günü ölkə və dünya müsəlmanlarını təbrik edən ulu öndər Ramazan bayramının çox əhəmiyyətli olduğunu, hər bir müsəlmanın mənəvi həyatında müstəsna yerə sahib olduğunu bildirərək 12 mart 1994-cü ildə belə bir təbriklə çıxış etmişdir:

*"Rəhmli, mərhəmətli Allahın adı ilə! Müqəddəs kitabımız Qurani-Kərimin nazil edildiyi mübarək Ramazan ayını ləyaqətlə başa vurmuş bütün müsəlman qardaş və bacılarımızı Orucluq bayramı münasibətilə ürəkdən təbrik edirəm.*

*Respublikamızın müsəlmanları Ramazan ayı günlərində Allaha, Vətənə və xalqa sədaqət, sıx həmrəylik və möhkəm iradə nümayiş etdirmiş, imanlarının saflığını təkcə sözlə deyil, həm də əməllə sübut etmişlər. İndi bu bayram günündə hər bir müsəlmanın öz müqəddəs borcunu şərəflə yerinə yetirməkdən doğan rahatlıq, sevinc və fərəh hisslərini bildirməyə tam haqqı vardır.*

*Mən əminəm ki, bu müqəddəs Orucluq günlərindəki ibadətlərdə edilən dua və niyyətlərin böyük əksəriyyəti müstəqil Azərbaycanımızın çiçəklənməsi, torpaqlarımızda əmin-amanlığın bərqərar olması, xalqımızın xoşbəxt və firavan yaşaması arzuları ilə bağlı olmuşdur. Allahın köməyi ilə, xalqımın hikməti ilə həmin arzuların həyata keçəcəyinə tam inanıram.*

*Bu əziz bayram günündə Azərbaycanın hər bir övladına- dözümlü və mətanətli xalqıma cansağlığı, Orucluq bayramından doğan xoş əhval-ruhiyyə, əmin-amanlıq və xoşbəxtlik arzulayıram".*

Bununla bərabər, Ümummilli liderimiz digər dinlərə mənsub olan ölkə vətəndaşlarının da əlamətdar dini günlərinə xüsusi diqqətlə yanaşmışdır. Təkcə bunu demək kifayətdir ki, o, 07 yanvar 1994-cü ildə İsa peyğəmbərin mövlud bayramı münasibətilə Azərbaycandakı pravoslav icmasına təbrik məktubunda deyirdi:

*"Əziz pravoslav həmvətənlər! Sizi İsa peyğəmbərin Mövlud bayramı münasibətilə təbrik edirəm! Dünyanın bütün pravoslav xristianları üçün bu işıqlı gündə sizə cansağlığı, səadət diləyirəm. Arzu edirəm ki, sizin bütün nəcib niyyətləriniz yerinə yetsin, bütün diləkləriniz başa gəlsin. İnanıram ki, Azərbaycandakı pravoslav icmasının firavanlığı vətənimizin tərəqqisi və çiçəklənməsi, bütün vətəndaşlarımızın xoşbəxt gələcəyi üçün etibarlı zəmin olacaqdır"* [4].

Ümummilli liderimiz Heydər Əliyevin 20 iyun 1994-cü ildə Aşura günü Təzəpir məscidində çıxış etməsi çox böyük ictimai və həm də dini əhəmiyyət daşıyır. Azərbaycan xalqının böyük əksəriyyətinin İmam Hüseynə yas

saxlamasını, xalqımızın Əhli-beytə olan mənəvi sevgisini nəzərə alan Ümummilli liderimiz həmin çıxışında bunları söyləmişdir:

*“Əziz bacılar və qardaşlar, əziz müsəlmanlar! Müsəlman aləmində faciəli, müqəddəs bir günün əziz xatirəsi qeyd olunur. Bu gün həzrət Məhəmməd peyğəmbərin nəvəsi həzrət imam Hüseynin qətlə yetirildiyi gündür. Biz ulu babalarımızın Vətən, torpaq, haqq, ədalət yolunda şəhid olduğu günü yad edirik. Bu münasibətlə mən bütün Azərbaycan müsəlmanlarına dərin hüznlə başsağlığı verirəm.*

*Bütün müsəlmanlar, o cümlədən biz Azərbaycanlılar həmin faciəli günü hər il yada salmaqla Vətənə, torpağa, dinimizə, məsləkimizə sədaqətimizi bir daha nümayiş etdiririk. Biz bundan sonra da Qurani-Şərifin, həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedəcək və haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş həzrət imam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq.*

*İndi Vətənimiz faciəli bir dövr keçirir. Yağı düşmən torpaqlarımıza hücum edir. Azərbaycanın cəsarətli oğulları Vətənimizi müdafiə edir və bu yolda həzrət imam Hüseyn kimi şəhid olurlar. Biz Vətən, torpaq, din yolunda canından keçmiş bütün şəhidlərin şücaəti qarşısında Kərbəla müsibətilə əlaqədar keçirilən bu mərasimdə bir daha baş əyir, onların xatirəsini qəlbimizdə daim yaşatmağa söz veririk.*

*Allah dünyasını dəyişmişlərin hamısına rəhmət eləsin. Biz qətlə yetirilmiş imam Hüseynin və onun silahdaşlarının xatirəsi önündə baş əyirik. Əmin olduğumu bildirirəm ki, xalqımız öz milli ənənələrinə, adətlərinə, dininə, məsləkinə həmişə sadiq qalacaqdır. Allah bu ağır günlərdə xalqımıza səbir versin. Allah doğma Azərbaycanımızı xoşbəxt etsin”* [5, https://lib.aliyev-heritage.org/az/9711090.html].

1994-cü il 26 avqust tarixində mövlud bayramı münasibətilə Təzəpir məscidində təntənəli mərasimdə dindarlar qarşısında çıxış edərkən Heydər Əliyev İslam dininin tərbiyəvi əhəmiyyətindən bəhs edərkən demişdir:

*“İslam dini həmişə insanları sağlığa, təmizliyə, ülvi mənəviyyata dəvət etmişdir. Qurani-Kərim insanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edir. Müstəqil Azərbaycan Respublikasının bu ağır, çox çətin, keşməkeşli dövründə bütün bunların bizdən ötrü böyük əhəmiyyəti vardır”.*

Mənəviyyatca təmiz, Vətən və xalq qədrini bilən, mədəniyyətini, milli adət-ənənələrini, tarixini, elmini dərindən öyrənən gənclər yetişdirmək vəzifəsini çox aydın və konkret şəkildə müəyyənləşdirən Ümummilli liderimiz deyirdi:

*“Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır”.*

Öz çıxışlarının birində isə bütün vətəndaşların milli-mənəvi ruhda olmasının zəruriliyini, insanların mənəvi tərbiyəsinin əhəmiyyətini xüsusi qeyd edən Ümummilli lider demişdir:

*"Mənəviyyatımız nə qədər yüksək olarsa, biz insanlarda, hər bir azərbaycanlıda, müsəlmanda Vətənə, öz amallarına sədaqət, mənəvi sağlıq əhval-ruhiyyəsi tərbiyə edə bilsək, Azərbaycan bu ağır böhran dövründən, çətinliklərdən tezliklə və müvəffəqiyyətlə çıxacaqdır".*

1993-cü ildə Heydər Əliyevin *"Allahın yolunda hamımız hür olaq"* kitabı Azərbaycan və bir neçə xarici dildə nəşr olundu. 1994-cü ilin iyul ayının 12-də Ümummilli Lider müqəddəs Məkkə və Mədinədə ümrə ziyarətində oldu. Bu səfəri zamanı müsəlman dünyasının dövlət başçıları, din xadimləri ilə görüşlər keçirdi. Ümmummilli liderimiz Mədinə şəhərindəki peyğəmbər məscidinin şərəf kitabına bu ürək sözlərini yazmışdı:

*"Bismillahi-rəhmanir-rəhim! Müqəddəs Mədinə şəhərini, islamın müqəddəs abidələrini, Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsini, məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm.*

*Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha islam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim.*

*İslamın dünyada yayılması üçün, islam abidələrinin bütün ziyarət edənlərdən ötrü paklıq şəraitində olması üçün Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsinin ətrafında yaradılmış məscid kompleksləri məni heyran etdi. Xüsusən son illərdə görülən işlər, yaradılmış möhtəşəm, əzəmətli məscid binaları böyük heyrət və ehtiram hissi doğurur...".*

Məscidlərin ictimai-əxlaqi tərbiyədəki rolunu düzgün qiymətləndirən Ümummilli liderimiz hər zaman məscid və ziyarətgahların tikintisinə qayğı ilə yanaşmışdır. Məlumdur ki, Sovet dövründə ölkədə məscid statuslu tikililərin sayı cəmi 17 idisə, təsadüfi deyil ki, Azərbaycanın müstəqillik qazanmasından, xüsusilə, ulu öndərin respublikaya rəhbərlik etməsindən sonra vicdan azadlığı tam bərqərar olundu, əhalinin dindar təbəqəsinin rahat şəkildə ibadət etməsinə şərait yaradıldı. Qeyd edək ki, bu gün ölkədə məscidlərin sayı artıq 2166-ya çatıb.

Ümummilli liderimiz Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun bir daha xalqa mənən bağlılığını və islami dəyərlərə sədaqətini göstərən parlaq misallardır. Ulu öndər Heydər Əliyevin tez-tez dindarlarla görüşməsi, dini bayramlarda məscidlərə getməsi,

dindarların mənəvi ehtiyaclarına həssaslıqla yanaşması xalq arasında həmişə böyük razılıq hissi ilə qarşılanmışdır. Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra dağıdılmış məscidlər bərpa edilməyə başladı. 14 mart 1994-cü ildə Nardaran pirini ziyarət etdikdən sonra ziyarətgaha toplaşanlar qarşısında Ümmummilli liderimiz belə çıxış etmişdir:

> *“Bir prezident kimi arzu edirəm ki, xalqımız daim firavan, azad yaşasın. Lakin təəssüf edirəm ki, azadlığa keçid dövründə respublikamızda cürbəcür əcaib hallar da meydana çıxır. Bəziləri azadlığı hərc-mərclik kimi başa düşür. Bu isə çox vaxt qanunların pozulmasına, cinayətkarlığın artmasına, insanların əxlaqının pozulmasına, gənclərin pis yola düşməsinə gətirib çıxarır ki, bu da bizi ciddi narahat edir. Bunlar hamısı qanunlara, milli-dini ənənələrə zidd olan hallardır.*
> *Ona görə də hərə öz məsuliyyətini dərk etməlidir. Xalqımız milli azadlığa çıxıb, dövlətimiz artıq müstəqildir, heç kəsdən asılı deyil. Deməli, biz öz evimizi necə istəsək, elə də quracağıq. “Ev” deyəndə, mən Azərbaycanı nəzərdə tuturam. Yaxşı çalışsaq, bu evi işıqlı quracağıq. Əgər biganə qalsaq, bəzi hallarda pozğunluğa yol versək bu binanı yaxşı tikə bilməyəcəyik. Gəlin hamımız əl-ələ verərək müstəqil Azərbaycanın, böyük Azərbaycan xalqının binasını, möhtəşəm binanı birlikdə gözəl tikək...”* [https://lib.aliyev-heritage.org/az/2778162.html].

1994-cü ildə ümummilli liderimiz Heydər Əliyev 1936-cı ildə qədim məscidin dağıdıldığı yerdə yeni məscidin tikilməsi barədə sərəncam imzaladı. 1998-ci ildə Bibiyeybətdə yeni binanın bərpa edilməsi işi başlandı. 12 iyul 1998-ci il tarixində keçirilən açılış mərasimində ulu öndər Heydər Əliyev demişdir:

> *“Bu gün gördüyünüz məscid, bu böyük abidə bizi sevindirir. Ancaq hesab edirəm ki, bu, işin birinci mərhələsidir. Bu tikinti layihə üzrə tamamilə başa çatmalıdır. Bu gün bəyan edirəm ki, bu məscid kompleksinin layihə üzrə tam sona çatmasını mən öz himayəmə götürürəm və onun həyata keçirilməsi üçün bütün imkanları yaradacağam, lazım olan yardımları edəcəyəm”* [7].

Ümummilli liderimiz çıxışlarının birində bildirirdi ki, Azərbaycanın straleji yolu demokratik, hüquqi, dünyəvi dövlət quruculuğundan keçir. Lakin Azərbaycanın dünyəvi dövlət olmasına baxmayaraq, həmişə xalqın milli-mənəvi, xüsusi ilə də dini dəyərlərinə xüsusi diqqət və qayğı göstərmişdir. Bundan başqa, dini abidələrin tikilişi və ya bərpası ilə kifayətlənməyən Ümummilli liderimiz həm də dini elmlərin tədrisi haqqındakı tövsiyələri xüsusi əhəmiyyətə malikdir. Ümummilli liderimiz Heydər Əliyev dünyəvi dövlətdə etiqad azadlığı prinsipini daha geniş açıqlayaraq demişdir ki:

> *“Dövlətimiz insanlara bütün azadlıqları vermiş və vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab etmişdir. Azərbaycan*

*Respublikasının Konstitusiyası din və vicdan azadlığını təsbit etmiş, biz isə bir dövlət kimi bunun təmin olunmasının qarantıyıq. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik".*

O, din elmlərinin bu günü və gələcəyi haqqında dərin elmi, nəzəri, metodoloji, əməli əhəmiyyət kəsb edən fikirlər söyləmişdir. Dini maariflənmənin rolunu nəzərə alan ümummilli liderimiz Heydər Əliyev 1996-cı il fevral ayının 2-də keçirilmiş Müstəqil Azərbaycan Gənclərinin I forumundakı çıxışında demişdir:

*"Ayrı-ayrı qruplar gənclərə fanatizm əhval-ruhiyyəsi aşılamaq istəyirlər və bunlar da bizim gənclərin tərbiyəsinə zərər vurur...".*

Ümummilli lider bütün sonrakı dövr ərzində dinə olan münasibətindəki vədinə əməl etmiş, dinin, dini təsisatların və etiqadların müasir Azərbaycan cəmiyyətində oynadıqları rola diqqətini azaltmamışdır. 8 aprel 1998-ci ildə Qurban bayramı münasibətilə Mir Möhsün ağanın ziyarətgahında keçirilən bir görüşdə qeyd etmişdir ki:

*"İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dinimizin adət-ənənələri bizim sərvətimizdir... Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır".*

1998-ci ilin dekabr ayının 9-11-də Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumdakı dərin məzmunlu məruzəsində Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək üçün çox işlərin görülməli olduğunu vurğulayaraq demişdir:

*"...Azərbaycan islamşünaslıq sahəsində XX əsr demək olar ki, tamamilə itirilmişdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Azərbaycan Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və elmi tədqiqat institutları, bəlkə də bu sahə üçün xüsusi təşkilatlar, orqanlar, elmi mərkəzlər yaratmalıdırlar. Belə təşəbbüslər olsa, mən onları dəstəkləyəcəyəm, bunlar üçün şərait də yaradacağam. Buna arxayın olun".*

Çıxışlarının birində islamşünaslığın öyrənilməsinə ciddi diqqətin yetirilməsinin zəruriliyini vurğulayan ümummilli liderimiz demişdir:

*"Sovet hakimiyyəti illərində Azərbaycanın özündə demək olar ki, islamşünaslar çox az idi, bəlkə də yox idi. Bunun da səbəbini sizə deyim. Məsələn, keçmiş Sovetlər İttifaqında islamşünaslar, əsasən, Moskvada idilər. Çünki islama mən dediyim həmin kommunist ideologiyası tərəfindən o qədər mənfi münasibət var idi ki, islama mənsub olan alimlərin özləri islamşünaslıqla məşğul olmaqdan çəkinirdilər, qorxurdular. Digər tərəfdən də hesab edirdilər ki, bu, dünya elmi üçün o qədər də əhəmiyyətli bir sahə deyildir, yaxşı olar ki, başqa bir sahə ilə məşğul olsunlar".*

Ümummili liderimiz gənc nəslin tərbiyəsində dini maarifin əhəmiyyətindən danışmış, o cümlədən ali məktəblərdə dini elmlərin tədqiqi və tədrisi məsələlərinə xüsusi diqqət yetirmişdir. Çünki o böyük mütəfəkkir dözümlülük, başqa dinlərə və məzhəblərə qarşı tolerantlıq nümayiş etdirməyin əsasında elmin, savadlanmağın və dini maarifin rolunu görürdü. Bu dediklərimizin hamısı onun aşağıdakı ifadəsində öz əksini tapmışdır:

> *"İslam dini bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən istifadə etməli və xüsusən, cəmiyyətdə, davranışda İslam dininin tələblərinə uyğun olaraq özünü göstərməlidir. Gənclərimizin İslam dinini mənimsəmələri üçün tədbirlər görülməlidir. Çünki bu tədbirlərin olmaması nəticəsində bəzi mənfi hallar meydana çıxır, ayrı-ayrı qruplar gənclərə fanatizm əhvali-ruhiyyəsi aşılamaq istəyirlər".*

Bu qiymətli və əvəzsiz kəlmələr onun sonrakı çıxışlarında da davam etdirilmişdir. Belə ki, 1998-ci ilin 30 sentyabr və 1 oktyabr tarixində Bakıda keçirilmiş "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusundakı beynəlxalq qurultaydakı nitqində demişdir:

> *"Biz müsəlmanlar fəxr edirik ki, mənsub olduğumuz İslam dini dünyanın böyük bir hissəsini əhatə edir və dünyada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir. Ona görə də mən inanıram ki, bu gün burada işə başlayan beynəlxalq konfrans İslam dininin mənəvi dəyərlərindən müasir həyatda səmərəli istifadə olunması üçün müvafiq tövsiyyələr irəli sürəcək və beləliklə biz ölkəmizin və buraya toplanmış nümayəndələrin ölkələrinin həyatında olan çətinliklərin, problemlərin həll edilməsinə nail ola biləcəyik".*

Ulu öndər həmin konfransda dünyəvi dövlətdə etiqad azadlığı prinsipindən geniş bəhs etdikdən sonra bunları söyləmişdir:

> *"Dövlətimiz insanlara bütün azadlıqları vermiş və vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası din və vicdan azadlığını təsbit etmiş, biz isə bir dövlət kimi bunun təmin olunmasının qarantıyıq. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik".*

Əlbəttə ki, bu qiymətli tövsiyələri lazımınca qiymətləndirməli və onu yüksək səviyyədə həyata keçirməliyik. Bu baxımdan İslam maarifinin ölkəmizin dünyəvi təhsil ocaqlarının hamısında öyrənilməsi, tədqiq, tədris və təbliğ olunması zəruridir. Bu hər şeydən əvvəl xalqımızın tarixi yaddaşının bərpa edilməsinə, milli mənlik şüurumuzun, təşəkkül tapıb formalaşmasına, milli mentalitetimizin yüksəlməsinə xidmət baxımından müstəsna əhəmiyyət kəsb edəcək. Çünki VII əsrdən etibarən xalqımız İslam dininin bütün ayinlərini mənimsəmiş, onu həyatının bütün sahələrində tətbiq etmişdir. Bütün bunlardan əlavə, xalqımızın islam elmlərinin inkişafındakı qədim rolu da yaddan çıxarılmamalıdır.

Ümummilli liderimiz Heydər Əliyevin 21 iyun 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Dövlət Komitəsinin yaradılmasında məqsəd Azərbaycan Konstitusiyasının 48-ci maddəsinin (Vicdan azadlığı) həyata keçirilməsi üçün müvafiq şəraitin formalaşdırılması və dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarının tələblərinə riayət olunmasını təmin etmək idi.

ATƏT-in 2002-ci ildə Bakıda keçirilən konfransında isə qeyd etmişdir ki, *"Yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür. İnsanlarda belə bir mədəniyyətin formalaşdırılmasını uşaqlıq illərindən başlamaq lazımdır...".*

*"İndiki dövrdə dinlərin cəmiyyətin həyatında oynadığı rol dinamik şəkildə dəyişir"*- deyən Ümummilli liderimiz bildirirdi ki, *"dinlərdən terrorizmə və ekstremizmə təhrik vasitəsi kimi istifadə etmək hallarının qarşısını almaq üçün "cəmiyyətin bütün təbəqələrinin, xüsusilə siyasətçilərin, alimlərin, dindarların və din xadimlərinin səfərbər edilməsi zəruridir".*

Ümummilli liderimiz İslam dinini təhqir edən, İslama qarşı aparılan xoşagəlməz siyasətin qarşısının alınmasında da müstəsna xidmətlər göstərmiş dahi şəxsiyyətdir. Ulu öndər İslam dinini Azərbaycan xalqının milli-mənəvi sərvəti hesab etmiş, hər zaman İslam dininin mütərəqqi din olduğunu, insanların mənəvi dünyasının paklanmasında rolunu xüsusi vurğulamış və bu haqda nitqlərinin birində belə demişdi:

> *"Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu İslam dini özünün mütərəqqi olduğunu, eyni zamanda, İslam dininə itaət edən adamların hamısına özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daimi xoşbəxtlik bəxş edir. Bizim dinimiz müsəlmanları həyatlarında rast gəldiyi çətinliklərdən xilas etməyə, düşmənlərə qarşı mübarizədə qalib gəlməyə və özlərini, öz ölkələrini, öz dinini, öz peşəsini qoruyub saxlamağa həmişə yardım etmişdir. Heç şübhə yoxdur ki, İslam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün İslam dininə itaət edən adamların hamısını xoşbəxtliyə, səadətə gətirib çıxaracaqdır".*

Ümummilli liderimizin yuxarıdakı dərin məzmunlu ifadələrindən bir daha aydın olur ki, ölkəmizdə ilahiyyatşünaslığı inkişaf etdirmək və bu sahədə yüksək ixtisaslı milli kadrların hazırlaması sahəsində qarşıya mühüm vəzifələr qoymuş və bunun üçün dövlət qayğısını belə əsirgəməmişdir. Buna görə də tam qətiyyətlə deyə bilərik ki, bugünkü mənada beynəlxalq standartlara cavab verən tolerantlıq ölkəmizdə məhz Ümummilli liderimiz Heydər Əliyevin xidmətləri sayəsində qurulmuşdur. Çıxışlarının birində Ümummilli liderimiz belə demişdir:

*"Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir".*

Roma papası İohann II Pavel 2003-cü ilin mayında Bakıda olarkən demişdi:

*"Azərbaycan üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir".*

Bu stabillik gərgin əməyin, ölçülüb-biçilmiş çox incə bir siyasətin və möhkəm iradənin nəticəsidir. Bu milli adət-ənənələrə, mənəvi-dini dəyərlərə ölkə rəhbərliyinin münasibəti fonunda yaranmış əlverişli şəraitin təbii təzahürüdür [8, s.22].

Ölkəmizdə səfərdə olan sabiq Moskva və Ümumrusiya Patriarxı II Aleksi öz çıxışlarının birində deyib:

*"Azərbaycan qədim dini ənənələrə və mədəniyyətə malik bir ölkədir. Bu gün də Azərbaycan dini əmin-amanlığa və sabitliyə ilham verən ölkədir. Bunun əsası Azərbaycan Prezidenti Heydər Əliyevin müdrik siyasəti sayəsində qoyulub. Dünyəvi hakimiyyət və ənənəvi dini icmaların konstruktiv fəaliyyəti və qarşılıqlı ünsiyyəti nəticəsində yaranan dövlət-din münasibətlərinin nadir modeli Azərbaycan Respublikasında öz əksini tapıb. Belə hesab edirik ki, bu sahədə Azərbaycanda toplanan təcrübə diqqətlə öyrənilməli, təhlil olunmalı və təbliğ edilməlidir"* [2, s.10].

05 may 2021-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş *"Ulu öndərin siyasətində dövlət-din münasibətləri: dünyəvilik və mənəvi birlik"* mövzusunda videokonfransda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri cənab Mübariz Qurbanlı çıxışında milli-mənəvi, dini dəyərlərimizə qayıdış və dəyərlərin təbliği, inkişafında ümummilli lider Heydər Əliyevin rolundan, tolerant və multikultural ənənələrə verdiyi önəmdən bəhs edərək demişdir:

*"Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın- Azərbaycançılığın təşəkkül və inkişafında müstəsna rol oynayıb. Sovet dövründəki dinlə bağlı sərt qadağalar, din xadimlərinin repressiyalara məruz qalması, bütün dinlərə aid ibadət ocaqlarının dağıdılması, o cümlədən müstəqilliyimizin ilk illərində bütün sahələrdə olduğu kimi din sahəsindəki pərakəndəlik dinlə bağlı daha həssas, qətiyyətli, həm də məqsədyönlü siyasətin həyata keçirilməsinə zərurət yaratdı. Məhz ümummilli lider Heydər Əliyevin*

*əsasını qoyduğu uğurlu siyasət nəticəsində dövlət-din münasibətlərində həssas nəzarətlə bərabər, ölkədə etiqad azadlığı üçün şərait yaradıldı, dini dəyərlərə, ibadət yerlərinə və din adamlarına xüsusi qayğı göstərilməyə başlanıldı. Müstəqil dövlətin ilk milli Konstitusiyasında dini etiqad azadlığı, vicdan azadlığı tam şəkildə təmin edildi, dünyəvilik prinsipi dövlət-din modelinin əsası kimi müəyyənləşdi".*

Həmçinin Komitə sədri qeyd edib ki,

*"Azərbaycanın təməl prinsiplərini ulu öndərin ideyaları təşkil edən bugünkü nümunəvi dövlət-din, tolerantlıq modeli öz bəhrəsini verir. Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində qoyduğu siyasətin onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla aparılmasının nəticəsidir ki, bu nümunə dünya ölkələri tərəfindən nümunəvi model kimi qəbul olunur"* [9].

Beləliklə, ulu öndər Heydər Əliyev xalqımızın milli-mənəvi dəyərlərinin və çoxəsrlik adət-ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi, dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində böyük işlər gördü. Bütün bu misilsiz işlərin nəticəsidir ki, bu gün Azərbaycan İslam dünyasında vəhdətin, həmrəyliyin gücləndirilməsinə mühüm töhfə verir, müvafiq irimiqyaslı tədbirlər keçirir. Bu gün dünyaya multikulturalizm nümunəsi olan Azərbaycanda dinlərarası dialoq və əməkdaşlıq da Ümummilli liderimiz Heydər Əliyevin müdrik siyasətinin, dini sahədə də balanslaşdırılmış siyasət yürütməsinin nəticəsidir. Bu bir reallıqdır ki, bu gün Azərbaycanda təkcə İslam deyil, eyni zamanda digər dinlərin nümayəndələri də bizimlə birgə, bərabər, yaşayır, sərbəst, heç bir məhdudiyyət olmadan öz dini inanclarını icra edirlər. Ümummilli liderimiz Heydər Əliyev Bakıda Baş Kafedral kilsənin açılışı münasibətilə keçirilən 24 mart 2003-cü il tarixli tədbirdə belə demişdir:

*"Azərbaycanda heç vaxt dini zəmində münaqişə, toquşma olmamışdır".*

Bunun bariz nümunəsini biz, qeyri-İslam dinindən olan insanlar üçün də Azərbaycanda kifayət qədər ibadət yerləri, kilsələr, sinaqoqlar inşa edilməsində görürük. Bu gün Azərbaycanda 13 kilsə, 7 sinaqoq fəaliyyət göstərir ki, bu da ölkəmizi dünyada tolerant ölkə kimi tanıdır. Ümummilli liderimiz Heydər Əliyev 08 sentyabr 2000-ci ildə ABŞ-ın nüfuzlu yəhudi təşkilatlarının rəhbərləri ilə görüşdə bu sözləri söyləmişdir:

*"Azərbaycanda yəhudilər əsrlər boyu, bəlkə minilliklər boyu yaşayıblar, çox dəyərli izlər qoyublar. Xüsusilə XX əsrdə Azərbaycanın sosial, iqtisadi inkişafında, mədəniyyətinin, elminin, təhsilinin, incəsənətinin inkişafında da yəhudi millətinə mənsub olan Azərbaycan vətəndaşları çox iş görüblər. Biz bunları həmişə yüksək qiymətləndirmişik. Zaman keçdikcə, hadisələrin bəziləri tarixə çevrildikcə onların qiyməti daha da çox artır. Hesab edirəm ki, Azərbaycandakı yəhudilər bu gün də yaxşı şəraitdə yaşayırlar"* [10].

Bütün bu qeyd etdiklərimizin fonunda bir daha bildiririk ki, Azərbaycandakı tolerantlıq ənənələri milli-mənəvi dəyərimizdir. Ona görə də tolerantlıq bizim əsrlərdən gələn milli xüsusiyyətimiz sayılır. Bu gün Azərbaycanda bir məzhəbdən olanlar digərlərinin əqidəsinə hörmətlə yanaşırlar. Məscidlər bütün məzhəbdən olanlar üçün ümumidir. Təkcə dində deyil, milli, siyasi və s. məsələlərdə də bu dözümlülük qorunur. Məsələn, antisemitizm bəşəriyyətin bəlası olsa da, Azərbaycanda bir dənə də olsa bu cür hal müşahidə edilməyib. Hazırda Azərbaycanda onlarla xalqın nümayəndəsi dostcasına yaşayaraq öz milli mədəni xüsusiyyətlərini qoruyurlar. Hər bir dini, milli qrup da öz növbəsində ümumi milli-mənəvi dəyərlərin formalaşmasına töhfə verir.

**3.Prezident İlham Əliyev və dini dəyərlərimiz**

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu din siyasəti müasir dövrdə Prezident İlham Əliyev böyük uzaqgörənlik və uğurla davam etdirir. Bu gün ölkəmizdə yaşayan müxtəlif dinlərin nümayəndələrinə diqqət və qayğının göstərilməsi Azərbaycan hökumətinin din siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Məhz bu siyasət sayəsində dövlət dini icmalara xüsusi diqqət və qayğı ilə yanaşır, hər il dövlət büdcəsindən dini icmalara yardımlar ayrılır, dini bayram və mərasimlər dövlət səviyyəsində qeyd edilir. Azərbaycan məhz bu siyasət nəticəsində bu gün bir sıra dövlətlərə nümunə göstərilir [11]. Prezident İlham Əliyev ölkəmizdəki din- dövlət münasibətlərindən danışarkən bunları söyləmişdir:

*"Azərbaycanda din-dövlət münasibətləri sağlam təməl üzərində formalaşıb və inkişaf edir".*

Həqiqətən də bu gün Prezident İlham Əliyevin tapşırığı və şəxsi nəzarəti ilə Azərbaycanda məscidlər yenidən qurulur, bərpa olunur. Bibiheybət məscid-ziyarətgah kompleksi, Təzəpir məscidi, Heydər məscidi, İçərişəhər Cümə məscidi, Əjdərbəy məscidi, Şamaxı Cümə məscidi, Gəncə "İmamzadə" kompleksi və onlarla digər dini abidə dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilərək dindarların istifadəsinə verilib. Dövlət başçısı müsəlman bayramlarını dindarlar və müsəlman ölkələrinin səfirləri ilə birgə qeyd edir. Özü və ailə üzvləri müqəddəs Kəbəni ziyarət ediblər. Bütün bu işlər bir dövlət başçısının öz ölkəsinin dini çoxluğuna, özünün də mənsub olduğu dini icmaya qayğısının təzahürüdür.

Prezident İlham Əliyev 2014-cü ilin məhz dekabrın 24-də Binəqədi rayonu ərazisində inşa edilən Heydər məscidində aparılan son tamamlanma işlərinin gedişi ilə tanış oldu. Qafqazın ən böyük məscidi hesab edilən Heydər məscidinin istifadəyə verilməsi dövlət başçısının dindarlara bir töhfəsi hesab edilməlidir. Bunu tarixi hadisə adlanıran Prezident çıxışında demişdir:

*"Çünki bu, Azərbaycanın gücünü, inkişaf dinamikasını, bizim öz milli, dini ənənələrimizə nə qədər sadiq olduğumuzu göstərir. Bu məscid ulu öndər Heydər Əliyevin adını daşıyır. Bu da təbiidir. Heydər Əliyev dahi şəxsiyyətdir. Azərbaycan xalqına bütün dövrlərdə ləyaqətlə xidmət edib... Məhz ulu öndərin dünyagörüşü, baxışları, siyasi bacarığı sayəsində Azərbaycan bütün ağır sınaqlardan şərəflə, üzüağ çıxa bilmişdir... Eyni zamanda, məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində o illərdə sağlam zəmində dövlət-din münasibətləri qurulub. O, həmişə qeyd edirdi ki, biz öz milli, dini adət-ənənələrimizə sadiq olaraq müasir, güclü dövlət qurmalıyıq. Bu idi onun strateji baxışları. Dövlət-din münasibətlərinin qurulması, formalaşması böyük nailiyyətimizdir. Bu gün də bu siyasət davam etdirilir.*

*Heydər Əliyevin dövründə Azərbaycanda 500-dən çox məscid tikilib. Yüzlərlə məscid təmir edilib. Ulu öndər müqəddəs Kəbənin içində namaz qılıb. Mən xoşbəxtəm ki, bu xoşbəxtlik mənə də nəsib olub. Yəni, o illərdə milli, dini dəyərlərə göstərilən diqqət və müəyyən edilmiş istiqamət bugünkü Azərbaycanın güclənməsinə xidmət edirdi... Onu da qeyd etməliyəm ki, bu məscid dövlət vəsaiti hesabına tikilib, necə ki, rus pravoslav, katolik, alban kilsələrinin tikintisi, təmir işlərində dövlət öz dəstəyini verib.*

*Azərbaycanda sinaqoqlar tikilir, təmir edilir. Yəni Azərbaycanda bu sahədə nadir təcrübə əldə edilib. Bu, bizim üçün təbiidir. Çünki bu, bizim üçün normal həyat tərzidir, cəmiyyətin normal yaşamasıdır. Eyni zamanda, bu, bizim dövlət siyasətimizdir. Bax, bu iki amil bu müsbət ab-havanı yaradır. Həm cəmiyyətdən gələn istəklər, sifarişlər, eyni zamanda dövlət siyasətimiz".*

Onu qeyd edək ki, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət başçısının sərəncamları ilə son bir neçə ildə qədim tarixi abidələrin, ziyarətgahların bərpası ilə bağlı görülən silsilə tədbirlər dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir. Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib.

Bunu da xüsusi olaraq vurğulayırı ki, Prezident İlham Əliyevlə yanaşı, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da multikulturalizmin Azərbaycan modelinin reallaşması istiqamətində mühüm işlər həyata keçirir. Mehriban xanımın rəhbərliyi və dəstəyi ilə Heydər Əliyev Fondu özünün beynəlxalq fəaliyyətində çoxsaylı layihələr həyata keçirir, bununla da Azərbaycan

multikulturalizminin üstünlüklərini bütün dünyaya əyani şəkildə təbliğ edir. Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun "Azərbaycan-tolerantlıq məkanı" layihəsi çərçivəsində həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda həyata keçirdiyi tədbir və layihələr beynəlxalq ictimaiyyət tərəfindən də rəğbətlə qarşılanır.

Xalqımızın öz tarixi, milli-mənəvi dəyərləri, doğma dili və mədəniyyəti üzərində möhkəm dayandığını qeyd edən ümumilli liderimizin həqiqi varisi Prezident İlham Əliyev ata vəsiyyətinə əməl edərək ölkəmizdə Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını təmin etdi. Heç şübhə yoxdur ki, cənab Prezidentin bu təşəbbüsü təsadüfü olaraq irəli sürülməmişdir. Fikrimcə, bu təşəbbüs tarixi ənənəyə verilən qiymətlə bərabər, həm də ümumislam ilahiyyatşünaslığı içində Azərbaycan ilahiyyatşünaslığının xüsusi çəkisi və yerinin olduğunu dövlət səviyyəsində göstərməkdir. Mən bir vətəndaş kimi ölkəmizdə ilahiyyat elmlərinə dövlət səviyyəsində belə münbit şəraitin yaradılmasını və bu fonda Azərbaycan İlahiyyat İnstitutunun açılmasını və institutda milli kadrlar tərəfindən aparılan tədqiqat işlərini aşağıdakı xüsusiyyətlərinə görə zəruri hesab edirəm:

Birincisi, Azərbaycan ilahiyyatşünaslığı ümumislam ilahiyyatşünaslığının tərkib hissəsi olduğundan onu xüsusi şəkildə tədqiqata cəlb etmədən ümumislam ilahiyyatşünaslığını lazımi şəkildə öyrənmək çətin olardı.

İkincisi, Azərbaycan ilahiyyatşünaslığı bizim milli-mənəvi və bütövlükdə dini dəyərlərimizi özündə əks etdirdiyindən onu öyrənməklə həm də milli-mənəvi və dini dəyərlərimizi qorumuş oluruq.

Üçüncüsü, Azərbaycan ilahiyyatşünaslığını müstəqil şəkildə tədqiqata cəlb edib öyrənməklə başqalarının bizə qarşı olan "üstənaşağı baxışı"nı qırmış və beləliklə də öz dinimizi başqalarının vasitəsi ilə deyil, məhz keçmiş alimlərimizin vasitəsi ilə öyrəndiyimizi sübut etmiş oluruq.

Dördüncüsü, Azərbaycan ilahiyyatşünaslarının elmi-dini mirasının böyük hissəsi xarici ölkələrin elmi-dini ocaqlarında qorunub saxlanılır. Deməli, biz Azərbaycan ilahiyyatşünaslığını tədqiqata cəlb edərkən istər-istəməz həmin ölkələrin qeyd edilən elmi-dini ocaqları ilə əlaqələr qurmuş oluruq ki, bunun da nəticəsində bizim müasir ilahiyyatşünaslığımız beynəlxalq aləmə çıxış etmiş və xarici münasibətlərimiz möhkəmlənmiş olur.

Beşincisi, Azərbaycan ilahiyyatşünaslığını müstəqil şəkildə tədqiqata cəlb etməklə biz İslam dünyasındakı nüfuzumuzu yüksəltmiş və onu qorumuş oluruq.

Altıncısı, Azərbaycan ilahiyyatşünaslığı demək olar ki, öz şərəfli tarixi boyu həm dini-məzhəbi, həm millətçi-şovinist və həm də xürafata çox az məruz qalmış sahə olduğundan onu fundamental şəkildə tədqiq edib başqalarına örnək kimi göstərə bilərik.

Yeddincisi, Azərbaycan ilahiyyatşünaslığını müstəqil halda tədqiq etməklə xalq arasında yayılmış bir çox xürafi adət-ənənələrdən yaxa qurtarmış və beləliklə də dinimizi qorumuş oluruq. Bundan başqa, son vaxtlar mütəxəssis və qeyri-mütəxəssislər arasında baş verən bəzi xoşagəlməz hadislərin qabağını almış olarıq.

Prezident İlham Əliyevin ölkədə apardığı uğurlu siyasətin nəticəsində müxtəlif dinlərin və məzhəblərin nümayəndələri vəhdət şəraitində yaşayır. Bunun çox ciddi məsələ olduğunu önə sürən Prezident demişdir:

*“Tarixən dünya dinlərinin yayıldığı və dinc yanaşı fəaliyyət göstərdiyi qədim Azərbaycan torpağında yüz illərlə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər sistemi formalaşmışdır. Diqqətəlayiq faktdır ki, ölkəmizdə həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanmasında Azərbaycan xalqının və İslam dininin misilsiz tarixi rolu danılmazdır”.*

Bir məqam da xüsusi vurğulanmalıdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin mədəni irsinin qorunub saxlanılması və beynəlxalq səviyyədə təbliği istiqamətində aparılan uğurlu fəaliyyət Azərbaycan mədəniyyətinin dünya miqyasında tanınmasına yol açıb. Bu gün Azərbaycan beynəlxalq miqyasda çoxəsrlik tarixi ənənələrə, milli-mənəvi dəyərlərə malik olan müasir ölkə kimi tanınır. Bu isə Azərbaycan həqiqətlərinin, milli dəyərlərimizin beynəlxalq təbliğində müstəsna əhəmiyyət kəsb edir.

**4.Nəticə**

*“Ümummilli lider Heydər Əliyev və dini-mənəvi dəyərlər”* mövzusunu tədqiq edərkən aşağıdakı nəticələrə gəlmişik:

Birincisi, Azərbaycan ilahiyyatşünaslığının tarixi çox qədim və çox zəngindir. Lakin Azərbaycan yenidən müstəqillik qazanandan sonra, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyəti dövründə ölkədə İslam haqqında bilgilər çoxalmış, yeni məscidlər tikilmiş, mədrəsələr və universitetlər qurulmuş, gənclər xarici ölkələrdə ilahiyyat elmləri üzrə təhsil almağa getmişdirlər.

Müqəddəslərin məzarları və başqa dini-tarixi ocaqlar daha da abadlaşdırılmış, onların üstündə dini mahiyyətli binalar ucaldılmışdır.

Din-dövlət münasibətlərini qaydaya salmaq, dini qurumları qeydiyyata almaq, onların Azərbaycan qanunvericiliyinə uyğunlaşdırmaq üçün 2001-ci ildə Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi (DQİDK) yaradılmışdır. Bu Komitədə qeydiyyanından keçməyən dini icmaların fəaliyyəti qanuna uyğun sayılmır. Həmdə bu Komitədə ölkəmizə xaricdən gələn dini ədəbiyyata nəzarət edilir, onun dinşunaslıq ekspertizasından keçməyən kitabların satışa

buraxılmasının qabağı alınır. Dini ədəbiyyatın isə yalnız özəl, icazəsi olan yerlərdə satılmasına icazə verilir.

İkincisi, ümummilli liderimiz Heydər Əliyev öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərini məqbul beynəlxalq standartlara müvafiq şəkildə öz təbii məcrasına qaytara bilmiş, dövlətin strateji xəttinə əsasən tənzim edə bilmişdi. O, ilk növbədə din-dövlət münasibətlərində yaranmış uçurumu aradan qaldırmış, qarşılıqlı inamı bərpa etmiş, dinin həqiqətən də milli-mənəvi dəyərlərdən biri olduğunu bildirmişdir.

Üçüncüsü, Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi ümummilli liderimiz Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır. Ümummilli liderimiz Heydər Əliyev rəhbərlik etdiyi dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

Dördüncüsü, dinimizin ən müqəddəs kitabı olan Qurani-Kərim, Həzrət Məhəmməd peyğəmbərin Əhli-beytinə olan münasibət, dini-tarixi abidələrimiz və ziyarətgahlarımız onun diqqət mərkəzində olmuş, bunlar xalqımızın milli-mənəvi və dini dəyərləri adlandırılmış, bu dəyərlərlə bağlı fikirlər söyləmiş, onları dövlət tərəfindən qorunmasını təmin etmişdir.

Beşincisi, Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsində ölkə vətəndaşları arasında dini-məzhəbi zəmində hər hansı toqquşma baş verməmişdir. Azərbaycanda müxtəlif dinlərə hörmət nümayiş etdirən Prezident İlham Əliyev həm xristianların, həm yəhudilərin, eləcə də müsəlmanların müqəddəs günlərində onlara ünvanlandığı təbrik müraciətləri müxtəlif konfessiya rəhbərləri tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilir.

## ƏDƏBİYYAT

**1.** Quliyev, İ. (2019). *Azərbaycan hədisşünaslığının inkişaf tarixi*. Bakı, Tuna.
**2.** Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi. *Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər.* Beynəlxalq konfrans, 3-4 aprel 2007. Bakı, Gülüstan sarayı.
**3.** Adil Abdullah al-Falah. (2007). *Heydar Aliyev and national-spiritual values*. Baku, Gismet.
**4.** https://lib.aliyev-heritage.org/az/699100.html
**5.** https://lib.aliyev-heritage.org/az/9711090.html
**6.** https://lib.aliyev-heritage.org/az/2778162.html

7. *Речь Президента Азербайджанской Республики Гейдара Алиева на церемонии открытия комплекса Биби-Эйбатской мечети-святилища* (https://az.wikipedia.org/wiki/Bibiheyb%C9%99t_m%C9%99scidi#cite_note_heydaraliyev-17 saytına istinadən).
8. Əliyev, R. (2013). 525-ci qəzet. 8 mart.
9. https://scwra.gov.az/az/view/news/9839/ulu-onderin-siyasetinde-dovlet-din-munasibetleri.
10. https://lib.aliyev-heritage.org/AZ/5517958.html
11. https://modern.az/aktual/386456/prezident-ilham-eliyevin-dini-siyaseti/

## Общенациональный лидер Гейдар Алиев и религиозно-духовные ценности

**Ибрагим Кулиев***

**Абстракт.** На нынешнем этапе во всем мире наблюдается возвращение к религии, придается большое значение религиозным ценностям. Роль религии вновь приобрела большой авторитет, в данной области были проведены серьезные научные исследования, увеличилась научная информация и учебно-практическая работа, а также повысился интерес ученых. Потому что религия - это система, направляющая людей к моральным основам. Но нельзя забывать, что религию, обладающую мощной идеологической силой влияния следует пропагандировать так, чтобы ею не воспользовались для коварных намерений. В первые годы независимости прослеживалась активность «миссионеров» из зарубежных стран, особенно с Запада и Востока. Их попытки создавания в стране противоречий между мусульманами и не мусульманами, шиитами и суннитами были более сильными и коварными. Именно Общенациональным Лидером Гейдаром Алиевым предпринялся решительный шаг против тех, кто приезжал в нашу страну с Запада и Востока для создания жесткой маржинальности. Его особым распоряжением от 8 января 1997-го года была запрещена разрушительная деятельность иностранных религиозных миссионеров в Азербайджане. Этим Общенациональный Лидер, заложил определенную основу для формирования религиозных убеждений в современном мире и указал его цель направления.
Общенациональный Лидер Гейдар Алиев, осознающий суть религии до всех ее тонкостей, старался эффективного использования ее силы, морально-эмоционального воздействия и оценивал религию как фундаментальный

* Доктор философии по философии,
Азербайджанский институт теологии; Баку, Азербайджан
E-mail: quliyev.ibrahim.78@mail.ru
https://orcid.org/0000-0001-9789-3148
**Цитировать статью:** Кулиев, И. [2023]. Общенациональный лидер Гейдар Алиев и религиозно-духовные ценности. *Журнал «Metafizika», 6(1),* с.139-160.

**История статьи:**
*Статья поступила в редакцию: 14.01.2023*
*Отправлена на доработку: 13.02.2023*
*Принята для печати: 14.03.2023*

принцип идеологии азербайджанства. Наш Общенациональный Лидер высоко оценивал значение норм исламской морали национально-нравственного менталитета, эффективно действовал в направлении их развития и распространения. Основываясь на такие выводы, с уверенностью можно утверждать об актуальности политической деятельности общенационального лидера с целью сохранения национально-нравственных ценностей и такая политика является важной задачей азербайджанской государственности.
На современном периоде Азербайджанское государство является гарантом наших национально-нравственных ценностей. Господин Президент уделяет серьезное внимание пропаганде национально-нравственных ценностей нашего народа, воспитанию нашей молодежи в этом духе. Выводы Президента Ильхама Алиева в связи с национальной идеологией олицетворяют основные черты его политического портрета. Наш народ также с большой благодарностью приветствует обширную деятельность Фонда, действующего в направлении сохранения и развития наших национально-нравственных ценностей, носящего имя общенационального лидера Гейдара Алиева.

**Ключевые слова:** исламская религия, национально-нравственные ценности, общенациональный лидер, Гейдар Алиев, Ильхам Алиев

## National leader Heydar Aliyev and religious and moral values

**Ibrahim Guliyev***

**Abstract.** Today, the whole world is experiencing a return to religion and giving great importance to religious values. In our time, the role of religions has gained a great influence again, a number of serious scientific researches have been conducted in this field, scientific information and teaching-learning activities have increased, and the interest of intellectuals in the subject has increased. Because religion is also a system that guides people as a moral institution. During our independence, "missionaries" from foreign countries, especially from the West and East, were more active. Their attempts to create discord between Muslims and non-Muslims, Sunnis and Shiites within our country were stronger and more insidious. It was our national leader Heydar Aliyev who took a decisive step against those who came to our country from the West and the East and wanted to create trouble here. With his special decree dated January 8, 1997, he prohibited the disruptive activities of foreign religious missionaries in Azerbaijan. With this, the genius leader laid the foundation for the formation of religious beliefs in our modern world and indicated its direction.

* Ph.D in Philosophy,
Azerbaijan Institute of Theology; Baku, Azerbaijan
E-mail: quliyev.ibrahim.78@mail.ru
https://orcid.org/0000-0001-9789-3148

**To cite this article:** Guliyev, I. [2023]. National leader Heydar Aliyev and religious and moral values. *“Metafizika” journal, 6(1),* pp.139-160.

**Article history:**
*Received: 14.01.2023*
*Accepted: 14.03.2023*

Our national leader Heydar Aliyev, who understands the essence of religion to all its subtleties, assessed the effective use of its spiritual and emotional influence as one of the fundamental principles of the Azerbaijani ideology. Our national leader highly appreciated the importance of Islamic moral norms in the national-moral mentality and worked effectively in the direction of their development and dissemination. Therefore, we can say that the political activity of our Great Leader in the direction of maintaining national and moral values is always relevant, and this policy is one of the most important tasks of Azerbaijan's statehood.

Today, the state of Azerbaijan has become the guarantor of our national and moral values. Mr. President pays serious attention to the promotion of the national and moral values of our people and the upbringing of our youth in this spirit. President Ilham Aliyev's views on national ideology embody the main features of his political portrait. Our people also appreciate the extensive activities of the Foundation named after our national leader Heydar Aliyev in the direction of protecting and promoting our national and moral values.

**Keywords:** Islamic religion, national and moral values, National leader, Heydar Aliyev, Ilham Aliyev

## REFERENCES

**1.** Guliyev, I. (2019). *Development history of Azerbaijani hadith studies*. Baku, Danube.

**2.** State Committee on Work with Religious Institutions. *Heydar Aliyev and religious policy in Azerbaijan: realities and perspectives.* International conference, April 3-4, 2007. Baku, Gulistan Palace.

**3.** Adil Abdullah al-Falah. (2007). *Heydar Aliyev and national-spiritual values.* Baku, Gismet.

**4.** https://lib.aliyev-heritage.org/az/699100.html

**5.** https://lib.aliyev-heritage.org/az/9711090.html

**6.** https://lib.aliyev-heritage.org/az/2778162.html

**7.** *Speech of the President of the Republic of Azerbaijan, Heydar Aliyev, at the opening ceremony of the Bibi-Eybat mosque-holy complex* (https://az.wikipedia.org/wiki/Bibiheyb%C9%99t_m%C9%99scidi#cite_note referring to the Heydaraliyev-17 site).

**8.** Aliyev, R. (2013). 525th newspaper. 8 March.

**9.** https://scwra.gov.az/az/view/news/9839/ulu-onderin-siyasetinde-dovlet-din-munasibetleri.

**10.** https://lib.aliyev-heritage.org/AZ/5517958.html

**11.** https://modern.az/aktual/386456/prezident-ilham-eliyevin-dini-siyaseti/